# Sərhədlərin delimitasiyası sülhlə bağlı nikbinliyi artırır

**"Mayın 16-da Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası üzrə protokolun imzalanması böyük siyasi uğurdur. Bu, bütövlükdə Cənubi Qafqazda dayanıqlı sülhün əldə edilməsi baxımından vacibdir. Sözügedən protokol, habelə iki ölkə arasında vasitəçisiz keçən danışıqlar sülhün bərpası imkanlarını və müqavilənin daha qısa zamanda imzalanması ehtimallarını yüksəldir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat qeyd edib ki, Azərbaycan ən qısa zamanda regionda sülhün əldə edilməsində maraqlıdır: "Azərbaycan postsovet məkanında münaqişəyə məruz qalmış, lakin ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən tək ölkədir. Ona görə də Azərbaycan bütövlükdə regionda sabitliyin formalaşmasına və inkişafına töhfə vermək, Ermənistanla sülh əldə etmək üçün bütün lazımi addımları atır. Təsadüfi deyil ki, Vətən müharibəsindən sonra sülh müqaviləsi şərtlərini ilk dəfə təqdim edən tərəf də məhz Azərbaycan olub".

Deputat qeyd edib ki, Azərbaycanla Ermənistan arasında sülh danışıqları məhz bizim təklif etdiyimiz beş bənd əsasında həyata keçirilir: "Sülh danışıqlarının predmeti hər iki ölkənin və bütövlükdə region ölkələrinin ərazi bütövlüyü, suverenliyi və təhlükəsizliyinin təminatı məsələsidir. Danışıqların və həyata keçirilən delimitasiya və demarkasiya işlərinin Alma-Ata protokoluna istinad edilməsi, eyni zamanda prosesin keçmiş SSRİ dövründəki sərhədlər əsasında və razılaşdırılmış sənədlər üzrə davam etdirilməsi təqdirəlayiqdir. Bütün bunlar region üçün sülh imkanlarını genişləndirir. Yeri gəlmişkən, mayın 15-də Azərbaycan ilə Ermənistan arasında sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların 9-cu görüşü də Cənubi Qafqazda sülhün bərqərar olmasına mühüm töhfələrdəndir".

Vüqar Bayramov onu da deyib ki, Azərbaycanın mövqeyi ondan ibarətdir ki, sülh davamlı və dayanıqlı olsun: "Biz regionda, bütövlükdə isə dünyada münaqişələrin əleyhinəyik. Azərbaycan Cənubi Qafqazın daha çox inkişaf etməsində, region ölkələrinin sülh və əmin-amanlıq şəraitində yaşamasında maraqlıdır. Həm də başa düşürük ki, sülh regional kommunikasiyaların bərpası ilə mümkündür. Ona görə də Zəngəzur dəhlizinin açılması, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru sərhədinin yenidən bərpa edilməsi dayanıqlı sülhün təminatı üçün çox vacibdir".

Deputat yekunda bildirib ki, sülhə səbəb olan amillərə nəzər yetirdikdə aydın olur ki, Azərbaycanla Ermənistan arasında birbaşa danışıqların aparılması, komissiyaların intensiv görüşlərinin keçirilməsi, protokolun imzalanması sülhün əldə edilməsi ilə bağlı nikbinliyimizi artırır.

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 18 may, № 103.- S.9.